"Təsdiq edirəm"

Rektor ________________ G.H.Məmmədova

"22" fevral 2023-cü il

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin 2023-cü il üçün prioritet istiqamətləri üzrə**

**FƏALİYYƏT PLANI**

| Məqsəd | Fəaliyyətin adı | Nəticə indikatoru | Zəruri ehtiyac |
|---|---|---|---|
| **1. Təhsilin keyfiyyətinin artırılması** | 1.1. Universitetin TKTA tərəfindən akkreditasiyadan keçirilməsi | Akkreditasiya şəhadətnaməsinin əldə edilməsi | Akkreditasiyaya hazırlıq aparılması |
| | 1.2. Mütəxəssis hazırlıq strukturunun təkmilləşdirilməsi | Dizayn fakültəsinin açılması barədə qərarın qəbul edilməsi | Say artımına görə mütəxəssis hazırlığının ehtiyacları |
| | 1.3. Dərslik və metodik bazanın yenilənməsi | Yeni dərslik və dərs vəsaitlərinin nəşri | Yeni tədris planlarının dərslik təminatı |
| | 1.4. Praktiki dərslərin əhəmiyyətinin artırılması, tədris laboratoriya bazasının inkişafı | 5 yeni tədris laboratoriyasının açılması | Təhsilin maddi-texniki bazasının yüksəlməsi |
| | 1.5. İnterdissiplinar magistr proqramlarının açılması | "Dayanıqlı şəhərsalma və regionların planlaşdırılması" və "Smart texnologiyalar" adlı iki magistr proqramına qəbul aparılması və planın yüksək faizlə doldurulması | Müasir istehsalatın tələblərinə cavab verən bir neçə sahə üzrə zəruri biliklərə malik mütəxəssis hazırlığının təmin edilməsi |
| | 1.6. MBA proqramlarının açılması | Yeni magistr proqramları üzrə ölkə iqtisadiyyatının və əmək bazarının tələblərinə uyğun magistr qəbulu | Bakalavr məzunlarının yeni bilik və səriştələrə yiyələnməklə biznes və sahibkarlıq sahəsində inkişaf etməsi, karyerada yüksəlmək meyllərinin təmin edilməsi |
| | 1.7. Tədrisin idarəetmə prosesinin tam elektronlaşması | • Elektron tədris şöbəsinin yaradılması<br>• Yeni tədris planlarına uyğun elektron mühazirələrin tam formalaşdırılması | - |
| **2. Elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsi** | 2.1. Doktoranturaya (PhD və elmlər doktoru) qəbulun təşviqi və stimullaşdırılması | Doktoranturaya qəbul planının yüksək faizlə icra olunması | Qəbul planı üzrə yerlərin ayrılması |

| | | | |
|---|---|---|---|
| | 2.2. Doktorluq dissertasiyalarının müdafiələrinin sayının və keyfiyyətinin artırılması | Müdafiəyə hazır olan doktorantların sayının keçən illə müqayisədə 20% artırılması | - |
| | 2.3. Beynəlxalq indeksli elmi jurnallarda məqalələrin dərc olunması istiqamətində fəaliyyətin davam etdirilməsi | Beynəlxalq indeksli jurnallarda dərc olunan məqalələrin sayının keçən illə müqayisədə 10% artırılması | TKTA tərəfindən təlimlər |
| | 2.4. Elmi-tədqiqatı dəstəkləyən qrant layihələrdə iştirakın təşviqi | • Büdcədənkənar 100 000 AZN dəyərində layihələrin icrası;<br>• Rəsmiləşdirilmiş patentlərin sayının 10% artırılması;<br>• Elm Fondu və digər fondlardakı layihələrdə iştirak. | Sənaye müəssisələri ilə əlaqələrin qurulması |
| | 2.5. Tələbələr və gənc tədqiqatçılar üçün münbit startap ekosisteminin yaradılması | KOICA proqramında akademik heyətin iştirakının dəstəklənməsi; Elmin kommersiyalaşdırılması - İdeyadan biznesə (İ2B) layihəsində iştirak edilməsi; "Creative Flame" üzvlüyünün genişləndirilməsi | Müvafiq sahədə fəaliyyət göstərən şirkətlərlə əməkdaşlığın qurulması |
| | 2.6. Alimlərin elmmetrik göstəricilərinin müsbət dinamikası | H indeksli alimlərin sayında artım | Beynəlxalq elmmetrik təşkilatlarla əməkdaşlığın qurulması |
| | 2.7. Respublika və beynəlxalq bazalarda indekslənən konfransların, seminarların, simpoziumların təşkili | • Konfransların sayında artım dinamikası<br>• Birgə tədqiqatların aparılması (məqalə, tezis, layihə) | Xarici ölkə alimlərinin konfranslara cəlb olunması |
| | 2.8. Elmi periodik jurnalların Scopus bazasında indeksləşdirilməsi istiqamətində intensiv işlərin aparılması | Jurnalların fəaliyyətinin müvafiq nüfuzlu beynəlxalq indekslərin tələbləri əsasında qurulması | Maliyyə dəstəyinin göstərilməsi |
| **3. İnsan kapitalının gücləndirilməsi** | 3.1. Mərhələli olaraq akademik heyət və istedadlı tələbələrin intensiv ingilis dili kurslarına cəlb edilməsi və ingilis dilinin mənimsənilməsi üçün uyğun mühitin yaradılması | • IELTS 6.5+ / ekvivalent TOEFL nəticəsini təsdiq edən rəsmi sertifikat sayı<br>• IELTS 6.0 / ekvivalent TOEFL nəticəsini təsdiq edən rəsmi sertifikat sayı<br>• IELTS 5.5 / ekvivalent TOEFL nəticəsini təsdiq edən rəsmi sertifikat sayı | İmtahan ilə bağlı rüsumların qazanılması məqsədilə beynəlxalq partnyorlarla əlaqələrin qurulması |
| | 3.2. Təhsilin rəqəmsallaşdırılması məqsədilə zəruri kompüter proqramlarının tədrisinin genişləndirilməsi | Məzunlara ixtisasyönümlü kompüter proqramlarının mənimsəmələri barədə təqdim olunan sertifikatların sayında artım | - |
| | 3.3. Tələbələrin, gənc tədqiqatçıların kompüter və proqramlaşdırma biliklərinin yüksəldilməsi üçün təkliflər zərfinin hazırlanması, tələbələrin hazır proqram təminatı zərfləri ilə işləmə qabiliyyətinin artırılması | 50 "Code for Future" sertifikatının əldə olunması | Özəl partnyorlarla əlaqələrin qurulmasına dəstək |

| | | | |
|---|---|---|---|
| | 3.4. Müasir səriştələrə malik kontingentin artırılması<br>3.5. Motivasiya sisteminin güclənməsi və gənclərin universitet fəaliyyətinə cəlb edilməsi | Müasir səriştələrə malik olan universitet əməkdaşlarının payının 10% artırılması | - |
| | 3.6. “Preserve Culture” layihəsi çərçivəsində zəruri tədbirlərin görülməsi | Layihə üzrə 50 nəfər iştirakçının seçilməsi | - |
| | 3.7. Qısamüddətli əlavə təhsil proqramlarının artırılması | Bazar iqtisadiyyatının tələblərinə uyğun olan yeni ixtisasartırma kurslarının yaradılması və dinləyicilərin cəlb edilməsi | - |
| **4. Təhsilin və elmi fəaliyyətin beynəlmiləşdirilməsi** | 4.1. Təhsil proqramlarının qabaqcıl beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi | Xarici universitetlərdən müxtəlif mübadilə proqramları ilə gələn müəllimlərin beynəlxalq təcrübəsindən istifadə olunması | - |
| | 4.2. Tədris prosesinə qabaqcıl xarici ali təhsil mütəxəssislərinin cəlb edilməsi | Beynəlxalq qrant layihələri, səfirliklər və universitetlərarası əməkdaşlıq çərçivəsində xarici müəllimlərin AzMİU-da tədris prosesinə cəlb edilməsi | Universitetlərarası əməkdaşlıq çərçivəsində xarici mütəxəssislərin AzMİU-da tədrisə cəlb edilməsi, eləcə də xaricdə uzunmüddətli ixtisasartırma proqramında iştirak edəcək AzMİU müəllimləri üçün maliyyələşmə mexanizminin müəyyənləşdirilməsi |
| | 4.3. Universitetin akademik heyətinin uzunmüddətli xarici ixtisasartırma proqramlarına cəlb edilməsi | Tərəfdaş universitetlərlə danışıqlar əsasında AzMİU-nun müəllimlərinin xaricdə ixtisasartırma keçməsi | |
| | 4.4. Professor-müəllim, inzibati heyətin və tələbələrin beynəlxalq mübadilələrə cəlb edilməsi | Erasmus+KA1, Orhun mübadilə proqramı və universitetlərarası əməkdaşlıq çərçivəsində AzMİU-nun müəllimlərinin, inzibati heyətinin və tələbələrinin Avropa, Türkiyə və digər ölkələrdə mübadilədə iştirak etməsi | |
| | 4.5. Universitetin beynəlxalq reytinq sistemlərində mövqeyinin gücləndirilməsi | QS, THE və digər nüfuzlu reytinq sistemlərində universitetin irəliləməsi | Beynəlxalq reytinq agentlikləri ilə əlaqələrin təşviqi |
| | 4.6. Mövcud ikili diplom proqramlarının davam etdirilməsi, yeni proqramların həyata keçirilməsi | 2023-2024 tədris ilində İTU, POLİMİ, Koruna və Leiria Universitetlərində təhsil almaq üçün tələbələrin göndərilməsi. Ankara Universiteti ilə Elektrik mühəndisliyi, Yıldız Texniki Universiteti və Sapienza Universiteti ilə Ekologiya mühəndisliyi ixtisasında ikili diplom proqramını reallaşdırmaq cəhdlərinin artırılması | Tələbələrin proqramlarda iştirakı üçün dil biliklərinin artırılması;<br>yeni ikili diplom proqramlarının icrası üçün əməkdaşlığın inkişaf etdirilməsi |

| | | | |
|---|---|---|---|
| | 4.7. Mövcud qrant layihələri üzərində işin davam etdirilməsi, yeni layihələr qazanmaq üçün cəhdlərin artırılması | AB-nin mövcud 3 qrant layihəsi ilə bağlı işlərin davam etdirilməsi və yeni çağırışı üçün Jan Monnet, Erasmus+ proqramlarına və Elm və Təhsil Nazirliyi tərəfindən Milan Politexnik Universiteti (POLİMİ) və Azərbaycan Memarlıq və İnşaat Univeristeti (AzMİU) arasında bakalavriat səviyyəsində dizayn ixtisasında ikili diplom proqramının həyata keçirilməsi üçün yeni dəstək layihələrinin təqdim edilməsi | Yeni qrant layihələrinə müraciət etmək üçün universitetdaxili qurumların əməkdaşlığının təşviqi; prioritet mövzuların təyin edilməsi |
| | 4.8. Əcnəbi tələbələrin cəlbi üçün universitetin təbliğ-təşviqi ilə bağlı fəaliyyətin artırılması | Xaricdə təhsil şirkətləri ilə əməkdaşlığın qurulması vəə təhsil sərgilərində iştirak edilməsi | Təhsil şirkətləri ilə əməkdaşlığın təşviqi, strateji əhəmiyyətli xarici təhsil sərgilərinin müəyyənləşdirilməsi və burada iştirak üçün maliyyələşmənin həyata keçirilməsi |
| | 4.9. ATM-lə bağlı multimedia məlumatlarının artırılması məqsədilə daxili internet televiziyasının (AzMİU TV) yaradılması | İşin təşkil olunması və 150 ədəd multimedia materialının hazırlanması | - |
| **5. Beynəlxalq akkreditasiya olunmuş proqramların sayının artırılması** | 5.1. Beynəlxalq mütəxəssislərin cəlb olunması ilə ixtisas (proqram) akkreditasiyasının keçirilməsi | 1 ENQA üzvü olan təşkilatla 1 ixtisasın akkreditasiyasına dair müqavilə imzalanması | TKTA tərəfindən təlimlər |
| **6. Tələbələrlə işin və ictimaiyyətlə əlaqələrin səmərəliliyinin artırılması** | 6.1. Tələbələrə göstərilən xidmətlərin keyfiyyətinin artırılması | Göstərilən xidmətlərin keyfiyyəti ilə bağlı tələbələr arasında sorğular keçirilməsi; keçirilən sorğularda qeyd edilən iradların üzərində işin aparılması | ETN tərəfindən təlimlər |